# ƏZİZ ƏSKƏROV-100



2007-ci ildə ölkəmizdə mineral su yataqlarının ilk tədqiqatçısı, tanınmış hidrogeoloq-alim, adı vətənimizdən kənarlarda çox məşhur olan, Azərbaycan hidrogeoloqlarının ağsaqqalı, Əməkdar elm xadimi, geologiya-mineralogiya elmləri doktoru, professor Əziz Həmzə oğlu Əsgərovun anadan olmasının 100 ili tamam oldu.

Əziz Əsgərov 1907-ci il mayın 6-da Dərbənd şəhərində anadan olmuşdur. O, Dərbənddə yeddi illik məktəbi bitirdikdən sonra Dağıstan Maarif Komissarlığı tərəfindən 1924-cü ildə Bakı Pedaqoji Texnikumuna göndərilir.

Bakı Pedaqoji Texnikumunu bitirdikdən sonra Əziz Əsgərov təyinatla Mahaçqala şəhərinə qayıdır və «Dağıstan füqarəsi» qəzetində məsul katib vəzifəsində çalışır. Öz xahişi onu ilə bir ildən sonra Azərbaycan Dövlət Universitetinə (indiki BDU) göndərirlər. Həmin vaxtdan ömrünün sonunadək Ə.Əsgərovun həyatı universitetlə bağlı olur.

Azərbaycan Dövlət Universitetində oxuduğu illərdə Əziz Əsgərov eyni zamanda «Ümumi geologiya və hidrogeologiya» kafedrasında laborant kimi fəaliyyət göstərir. Tələbəlik illərində həmyerlisi olan tələbələr tərəfindən o, Dağıstanın yubiley sessiyasına nümayəndə seçilir və orada tərcüməçi kimi fəaliyyət göstərir.

Əziz Əsgərov 1934-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirir və Elmi Şuranın qərarı ilə Ümumi geologiya və hidrogeologiya kafedrasında aspirant saxlanılır. Tanınmış alim, professor V.V.Boqaçovun rəhbərliyi ilə «Azərbaycanın cənub-şərq hissəsinin mineral su mənbələrinin geologiyası» mövzusunda namizədlik dissertasiyasını yerinə yetirmək üçün elmi tədqiqat işləri aparmağa başlayır.

Ə.Əsgərov aspiranturada təhsil ala-ala həmin il pedaqoji fəaliyyətə başlayır. O, tələbələrə ümumi geologiyadan təcrübə dərsləri aparır. Ə.Əsgərovun pedaqoji fəaliyyəti əvvəlki illərə də təsadüf edir. 1927-1934-cü illərdə Ə.Əsgərov Dağıstan orta məktəblərində və Bakı Dəmiryol Texnikumunda təbiətşünaslıqdan dərs demişdir.

Əziz Əsgərov universitetdə pedaqoji fəaliyyəti ilə yanaşı 1940-1953-cü illərdə Azərbaycan Pedaqoji Universitetində də ümumi geologiya fənnini tədris etmişdir.

1938-ci ildə Ə.Əsgərov «Azərbaycanın cənub-şərq hissəsinin mineral su mənbələrinin geologiyası» mövzusunda namizədlik dissertasiyasını müdafiə etdikdən sonra Ümumi geologiya və hidrogeologiya kafedrasının müdiri vəzifəsinə seçilir və uzun müddət həmin kafedraya rəhbərlik edir. 1940-cı ildə eyni adlı monoqrafiyası Azərbaycan Mədəniyyət Komissarlığı tərəfindən monoqrafiya kimi tövsiyə olunmuş və nəşr

edilmişdir. Bu monoqrafiyanın ilk səhifələrində Əziz Əsgərov qeyd edirdi ki, «Talışın mineral su mənbələrindən istifadə geoloji maraqdan başqa ölkənin müalicə sularının öyrənilməsi ilə bağlı dövlət əhəmiyyəti daşıyır.

Həmin monoqrafiyada müəllif Astara, Lənkəran, Masallı, Lerik və Cəlilabad rayonlarının mineral su mənbələrinin hidrogeoloji yaranma şəraiti, paylanma qanunauyğunluqları, geokimyəvi və müalicəvi əhəmiyyətləri ətraflı təsvir olunmuşdur.

1943-cü ildə universitetdə geologiya ixtisasına, 1944-cü ildə coğrafiya ixtisasına qəbul aparılır və geoloji-coğrafiya fakültəsi yaradılır. Fakültənin ilk dekanı prof. Ə.H.Əsgərov seçilir və 1952-ci ilə kimi fakültəyə rəhbərlik edir.

1949-cu ildə Əziz Əsgərov M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Elmi Şurasında «Azərbaycanın mineral su mənbələri» mövzusunda doktorluq dissertasiya işini müdafiə edir. Əziz Əsgərovun yazdığı əsərlər içərisində ən əsasının biri də «Azərbaycan Respublikasının mineral su mənbələri» adlı (ADU-nun nəşri, Bakı-1954) fundamental monoqrafiyasıdır. Bu monoqrafiyanı hazırlamaq üçün professor Ə.Əsgərov çöl tədqiqatları zamanı ölkə ərazisində olan çoxsaylı mineral su mənbələrinin hər biri haqqında hidrogeoloji məlumatlar toplamış və nəşr etdirmişdir. Bu monoqrafiyada vətənimizin əksər mineral su bulaqlarının hidrogeologiyası haqqında ətraflı məlumat verilmişdir. Əsər aspirant və magistrantların masaüstü kitabıdır.

1986-cı ildə «Azərnəşr» tərəfindən Ə.Əsgərovun, A.Aslanov və X.Nəsirova ilə birgə yazdıqları «Naxçıvan MR mineral suları» adlı monoqrafiyaları nəşr edilir. Monoqrafiyada Naxçıvan MR-i 215 mineral bulaqları haqqında məlumat verilir. «Badamlı», «Sirab», «Vayxır», kimi məşhur mineral suları və Culfa rayonu ərazisindəki Darıdığ sürməlimərgümüşlü mineral su mənbələrinin təbii formalaşma şəraiti barədə həmin kitabda ətraflı məlumat verilmişdir.

1987-1992-ci illərdə Ə.Əsgərov Elmlər Akademiyası və BDU-nun Elmi Xəbərlər jurnallarında çap etdirdiyi məqalələrdə hidrogeoloq alimlərin diqqətini təbii mineral su mənbələrinin qorunmasına, onların istismarına və ətraf mühitin mühafizəsinə cəlb etmişdir.

Professor Ə.Əsgərovun 1989-cu ildə «Maarif» nəşriyyatı tərəfindən «Hidrogeologiya» fənnindən ali məktəb tələbələri üçün dərsliyi çapdan çıxmışdır.

Prof. Ə.H.Əsgərov 220-dən çox elmi əsərin müəllifi olmuşdur. 40-dan artıq aspirant və dissertant öz dissertasiya işlərini Ə.Əsgərovun rəhbərliyi ilə yerinə yetirib müdafiə etmişlər.

Prof. Ə.H.Əsgərovun xidmətləri dövlət tərəfindən Qırmızı Əmək Bayrağı ordeni, medallarla və fəxri fərmanlarla təltif edilmişdir.

***Redaksiya heyəti***